# Nuriyyə Lövh

Təqdim etdi:

Əli Çağla



Şəhərin alt qatını açıqlasam
Beş gözü ilə ağlayacaq bizə
Qocaman körpü.
Üst qatını çevirsəmsə,
Beş dönə boşaldacaq
Bulanıq gözlərin
Yarımçıq bərələrin
Çürümüş döşlərinə
Və beş mərtəbə sızlayacaq o
Qaldırılan sinematoqrafıya
Ya da torpaqlara çevrilən sevgilərin
incik sümükləri
Hələ də
Hələ də sevgimizin ayaq izləri qalır
Çöplü bağında,
Çöplü bağı “Kefli bağı”
Açıqlamalıyam sizə dostlar
Arxasında bir var, dustaq var.
Qadınlar gülüstanı adlanmış
Yorğun oturacaqların bəzədikdə
Din kafelərin üz-üzə oturacaqları
Alt-üst olur ürəyimin gizlin qatında
Və bir an
Dans edir sevdalıların həsrət dolu gözləri
Köks dənizimin acı sahilində
Hələ harasıdır
Açıqcasına
Açıqlayacağam sizə.
Yaşadığımız bu tragik şəhəri.
Boy atır hər an
Aramızda çəkilən yasaq divarlar.
Amansızcasına qocalır ölülər
Burjua sağır proletariatın boş əmcəklərin
Və alınlarında daşıyırlar
Uydurucu dərmanları
Ağzı yekə yalançılar.
Birin də təpdilər dostumun boğazına
Əkiz-əkiz şüar doğan palançılar
Burda
İdeologiya balet dansı eləyir
Beyinlərimizin paslı bucağında
Xurcun-xurcun ayrılıq
Göz yaşı,
Ölüm,
İtim
Amma sevməyə izin yox...
Dayanın dostlar
Tragediyanın yoxuşuna çatır
Hünərsiz şəhərin kədərli kinosu
Burda maskalı dolanar insancığazlar
Ayrıca yoluxucu xəstəliyindən deyil
Qorxular təklif edir bu zəhərli qara niqa-
bı

Burda dörd xiyaban yallı gedir
Kinonun orta qatında
Təbriz,
Marağa,
Qoşaçay,
Dəniz
Dörd dönə qıçım züyürşeirinpillələrindən
Və dörd yana bölünür röyalarım.

Türküstan.- 2025.- 8-14 aprel, №11.- S.14.